

Səbuhi RƏFİBƏYLİ

## DÜNYA

Sən necə səbr edib görk eləmirsən?
Düzə doğrulara ərk eləmirsən?
Yalanı buraxıb tərk eləmirsən .
Namərdin duz basır yarama dünya.

Əzəldən bu könül incidi, küsdü
Şirin ümidlərdən əlini üzdü
Götürüb başını çöllərə düşdü.
Daha məni gəzmə, arama  dünya

Sellənən yaşlara selə yaşadı .
Ağarmış saçlara telə yaşadım
Ömrümü-günümü belə yaşadım
Mən əl uzatmadım harama dünya

Yandırıb yaxmısan, alışdırmısan
Əyrini düzlərlə yarışdırmısan
Sən özün qatmısan, qarışdırmısan
Halalın qaraşıb harama dünya

Nahaqqı sinirib udub çeynəmək
Doğruya şər artıb yalan söyləmək,
Təmənna dilənmək, maraq gözləmək,
Bu yaşda yaraşar harama dünya.

Tutub şirin dilə dindirən də sən
Könlünü xoş edib güldürən də sən
Hördürüb, toxudub, öldürəndə sən,
Tor-düyün içində barama dünya.

Bəsdi tumar atıb, sığal çəkdiyin
Səbrimin içinə çığal əkdiyin
Yığılmır gözlərdən süzüb tökdüyüm,
Əlləyib üzümü darama dünya.

## BAXIŞMAĞA

Şirin-şirin nazlı-nazlı
Gül ətirli bahar yazlı .
Xoş sədalı xoş avazlı.
Söz istərəm danışmağa.

Bitməyəcək vüsal gücüm
Xatırlayıb anmaq üçün
Həzin-həzin yanmaq üçün
Köz istərəm alışmağa.

Gül üzünü görmək üçün
Tellərini hörmək üçün.
Darıxmışam sevmək üçün
Göz istərəm baxışmağa.

## DÜŞMÜŞÜK

Sanardıq ki, yaylaq olar dağ olar
Şirin dilli xoş əyyamlı çağ olar
Bəxtlərimiz üzlərimiz ağ olar.
Göz yaşının bulağına  düşmüşük.

Şər quyusun qazmış idi burada,
Yazısını yazmış idi burada.
Nə itimiz azmış idi burada
Bu dünyanın marağına düşmüşük.

Solan - solub, xəzan olub tökülüb
Yeyən yeyib, doyan doyub, çəkilib,
Tülkülərin düzü görüb əkilib
Süfrəsinin qırağına düşmüşük.

Öləni çox görəni yox hardadı
Vəd edilən cənnətimiz ordadı,
Axirətin cəhənnəmi burdadı!
Od atəşin ocağına düşmüşük.

Bir sifətdə neçə yalan, neçə üz
Hiylələrlə tumarlanan oğru, düz
Nəyimizə gərək idi doğru, düz
Həqiqətin sorağına düşmüşük?

## MƏHƏBBƏTİNDƏN

Dəydi dağa-daşlara
Sel-sulara yaşlara.
Səpələndi saçlara
Çən öz məhəbbətindən

Gözlər-gözə dayandı
Mən alışdım, o yandı
Sevincimə qısqandı
Qəm öz məhəbbətindən.

Ağrı acı duymadı
Hey ağlatdı doymadı
Darıxmağa qoymadı
Nəm öz məhəbbətindən.

Yaxınlaşdı düzümə
Şirin söhbət  sözümə
Uçub qondu üzümə
Şən öz məhəbbətindən.

Gah düz getdim, gah kəsə
Həqiqətlə səs-səs,
Pay ayırdım hər kəsə
Mən öz məhəbbətimdən.

## GƏTİRƏCƏKSƏN

Kimdir küsən kimdir uman hörümçək
Hanı sənin torun, yuvan hörümçək
Üzərimdə gəzib, duran hörümçək
Sən mənə müjdəmi gətirəcəksən.

Yəqin ki duymusan tükənib gücüm,
Nə vaxtdı qəmliyəm gülməyir üzüm
Ömrümü  həvəslə yaşamaq üçün
Qüvvət də, gücdəmi gətirəcəksən

Çalmağa hazırdı ilanı məni
Haqsızın soyğunu, talanı məni
Yorub bu dünyanın yalanı məni
Doğru da düzdəmi gətirəcəksən

## DEYƏ

Sanki günəş oyanır
Ətraf nura boyanır,
Yerişlərim dayanır
Sən orda varsan deyə

Bülbül güllə gözləşir,
Cəh-cəh vurur səsləşir
Təbiət gözəlləşir,
Sən orda varsan deyə.

İncimərəm, küsmərəm
Daha ruhdan düşmərəm,
Mən yaşamaq istərəm
Sən orda varsan deyə.

## ŞEİR YAZMAĞA

Kimsə dilə tutub başımı qatmaz
İlham pərilərim hayıma çatmaz,
Nə kağız, nə qələm əlimə yatmaz
Bu gün həvəsim yox şeir yazmağa.

Toxunmur üzümə həzin küləklər
Könlümü oxşamır açan çiçəklər,
Qəlbdən uzaq düşüb arzu, diləklər,
Bu gün həvəsim yox şeir yazmağa.

Kefsizəm, lap ruhdan düşmüş kimiyəm
Əlləri ümiddən üzmüş kimiyəm
Həyatdan inciyib küsmüş  kimiyəm
Bu gün həvəsim yox şeir yazmağa .

## YAŞAMAQ ÜÇÜN

Olmasın bu həyat belə yorucu
Çağlasın qəlbimiz dilək dolusu
Sevgi istəyirəm ürək dolusu
Elə darıxıram yaşamaq üçün.

Kaş ki bu dünyaya bir də gələydim,
Hər günün, hər anın qədrin biləydim
Əziz doğmalarla deyib-güləydim,
Elə darıxıram yaşamaq üçün.

Nə könül inciyə, nə gül solaydı.
Nədə ki həsrətin gözü dolaydı,
Sevib, sevilməyə həvəs olaydı
Elə darıxıram yaşamaq üçün.

Düşə gözəllərin yenə meylimə
Şirin xatirələr dönə şerimə
Gözəl təbiətin dalıb seyrinə
Elə darıxıram yaşamaq üçün .

## YERİ

Yenə də dalmışam düşüncələrə
Ümidlə baxıram doğan səhərə
Sənin özün qədər əzizdi mənə.
Şirin xəyalların sığınan yeri.

Həyatın gerçəyi yalanı həsrət
Qəlbimin soyğunu talanı həsrət,
Mənim gözlərimin  dolanı həsrət.
Axan yaşlarımın yığılan yeri.

Yoxdu bir soruşub arıyan indi.
Həsrəti vüsala calıyan indi,
Dağların çovğunu qarıyam indi,
Sənin qəlbin idi qızınan yeri.

Yandırdı qəlbimi atəşin odu
Bilmirəm qiyamət axirət bumu?
Sənsizlik mənimçün həyatın sonu
Dünyanın məhv olub yıxılan yeri.

## UZAQ

Arzular laylada mürgüdə yatar
Dünya təzadların başımı qatar
Nə ünüm yetişər nə hayım çatar
Bu mənzil atdığım daşımdan uzaq.

Kədərimlə birgə qəmimlə birgə
Bürünüb gəzərəm çənimlə birgə.
Yağmurlar içində nəmimlə birgə,
Bəzən ağlayaram yaşımdan uzaq.

Daha həqiqətin adı bilinməz
Üzlərin sevinci şadı biliməz
Mənimçün həyatın dadı biliməz
Şirnisi şəkəri aşımdan uzaq

Əyrilər yalanlar düzləmişəm mən.
Bu qəlbi haqq üçün kökləmişəm mən
O qədər qayğılar yükləmişəm mən
Qaçmaq istəyirəm başımdan uzaq.

## VURĞUNAM

Sərin küləklərin əsdiyi zaman
Könül məmnun olar bu xoş duyğudan.
Ayın ulduzların bir-bir sayrışan
Vurğunam gecənin qaranlığına.

Gözlərin parlayan işıltısında
Əsən yarpaqların xışıltısında,
Yarın sevgi dolu pıçıltısında
Vurğunam gecənin qaranlığına.

Bəzən alışdığım bəzən yandığım
Duyğular içində fikrə daldığım
Küsüb yuxulardan oyaq qaldığım
Vurğunam gecənin qaranlığına.

Gözəl sakitliyi sükutla  dinlə
Həyat mürgüləyər öz ahəngində
Hayların, küylərin səssizliyində
Vurğunam gecənin qaranlığına.